PARLAMENT SEÇKİLƏRİ - 2015

# Parlament seçkiləri uğurla başa çatıb

**Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov bildirdi ki, bütün hesablamalarımız partiyanın irəli sürdüyü namizədlərin seçkilərdə böyük şansları olduğunu, Azərbaycan seçicilərinin rəğbətini qazanacağını və YAP-ı parlamentdə təmsil etmək hüququ əldə edəcəklərini təsdiqləyir**








**Dünən Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov 1 noyabr parlament seçkiləri ilə bağlı mətbuat konfransı keçirdi. Ə.Əhmədov bildirdi ki, ölkədə növbəti parlament seçkiləri uğurla başa çatıb. Qanunvericiliyə uyğun olaraq məntəqələr səhər saat 8.00-da açılıb, axşam 19:00-da bağlanıb. Artıq MSK səsvermənin ilkin nəticələrini hesablayır, yaxın zamanlarda elan ediləcək.**




Ə.Əhmədov qeyd etdi ki, seçkilər Azərbaycan Milli Məclisinin qəbul etdiyi qanunvericilik aktlarına, Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə, demokratik əsaslarla, ədalətli və şəffaf keçirilib: "Tam qətiyyətlə fikir söyləmək mümkündür. Növbəti çox vacib məqam kimi səsvermədə Azərbaycan seçicilərinin kifayət qədər fəal şəkildə iştirak etdiyi qeyd olunmalıdır. İlkin məlumatlara görə, səsvermədə 55 faizdən yuxarı Azərbaycan vətəndaşları iştirak edib. Bu, MSK tərəfindən elan edilən rəqəmdir. Qeyd etmək istərdim ki, 5 il bundan əvvəl Azərbaycanda keçirilən parlament seçkilərində iştirak edən vətəndaşların, seçicilərin sayı 50 faizdən bir qədər aşağı - 49,6 faiz olmuşdu. Bu, bir daha onu göstərir ki, Azərbaycanda keçirilən növbəti parlament seçkilərində seciçi fəallığı kifayət qədər yüksək olmuşdur. Seçkilər normal şəraitdə, seçki kampaniyasının bütövlükdə gedişi, o cümlədən də onun ən vacib hissəsi olan səsvermə hər hansı ciddi qanun pozuntuları olmadan keçirilib. Çox xırda, səsvermənin nəticəsinə təsir göstərməyən məqamlar nəzərə alınmasa, bütövlükdə səsvermənin çox normal, sakit şəkildə keçirildiyini qeyd etmək olar. Bu da bir tərəfdən, Azərbaycanda seçki kampaniyasının və səsvermənin yüksək səviyyədə təşkil olunmasından, ikinci bir tərəfdən isə, bütövlükdə ədalətli və şəffaf keçirilməsindən xəbər verir. Yeni Azərbaycan Partiyası parlament seçkilərində ən çoxsaylı namizədləri ilə iştirak edən siyasi partiyadır. YAP 117 namizəd irəli sürmüşdü. İki nəfər öz namizədliyini geri götürdükdən sonra YAP 115 namizədlə seçki kampaniyasında iştirak edib. Bütün hesablamalarımız ondan xəbər verir ki, YAP-ın irəli sürdüyü namizədlərin seçkilərdə böyük şansları var və inanırıq ki, irəli sürdüyümüz namizədlərin böyük bir hissəsi Azərbaycan seçicilərinin rəğbətini qazanacaq və YAP-ı parlamentdə təmsil etmək hüququ əldə edəcək."

"Bildiyiniz kimi, ölkədə seçkilərin gedişini izləmək üçün "exit poll" keçirilib" söyləyən Ə.Əhmədov bildirdi ki, onların nəticələri də elan olunub. Həmin nəticələr bizim belə bir gözləntimizin kifayət qədər ciddi əsaslara söykəndiyindən xəbər verir: "Təbii ki, bu, ilkin nəticədir. MSK tərəfindən artıq rəsmi şəkildə səsvermənin ilkin nəticələri ilə bağlı məlumatlar daxil olacaq. Güman edirəm ki, "exit-poll"un ortaya çıxardığı ümumi mənzərə MSK-nın elan etdiyi ilkin nəticələrlə o qədər ciddi şəkildə fərqlənməyəcək. Bu mənada YAP güman edirəm ki, növbəti dəfə Azərbaycan parlamentində təmsil olunan ən çoxsaylı partiya hüququnu qoruyub saxlaya biləcək."

Əli Əhmədov qeyd etdi ki, digər siyasi partiyaların iştirakı ilə bağlı məlumatınız var. Güman edirəm ki, "exit-poll"un nəticələri, bir müddət sonra isə MSK-nın elan edəcəyi ilkin nəticələr həmin partiyaların irəli sürdüyü namizədlərin səsvermədə nə qədər uğur qazandığı barədə aydın məlumat verəcək.

Ə.Əhmədov vurğuladı ki, seçkilərin gedişini çoxsaylı daxili və xarici müşahidəçilər izləyiblər. O cümlədən YAP-ın hər bir məntəqədə qanunauyğun şəkildə təyin etdiyi müşahidəçiləri kampaniyanın gedişini müşahidə ediblər. Müşahidəçilərimiz tərəfindən bizə verilən məlumatlar seçki kampaniyasının yüksək fəallıq şəraitində, ədalətli keçirilməsi barədə fikir söyləməyə əsas verir. Düşünürəm ki, seçkilərin baş tutması, normal şəraitdə keçirilməsi bütövlükdə Azərbaycan cəmiyyətində mövcud olan ictimai-siyasi sabitliyin ifadəsi hesab oluna bilər. Bu ictimai-siyasi sabitlik, eyni zamanda, səsvermə prosesinin normal şəraitdə keçirilməsini təmin edib: "Bir tərəfdən hesab edirəm ki, YAP-ın əldə etdiyi uğurlar Azərbaycan vətəndaşlarının ölkədə ictimai-siyasi sabitliyə, inkişafa, gələcəklə bağlı ümidlərinin yüksək olmasına dəlalət edir. Bütün bunlar Azərbaycan vətəndaşlarının rəyinin formalaşmasına təsir göstərir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət və bu siyasətin uğurları, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik və bu fonda iqtisadi sahədə, digər sferalarda əldə olunan nəticələr Azərbaycan vətəndaşlarının hakimiyyətə müsbət münasibətini formalaşdırıb. Bu ab-hava da onların verdiyi səslərdə öz əksini tapıb. Təbiidir ki, bu səslərin böyük əksəriyyətinin YAP-ın irəli sürdüyü namizədlərə verildiyini gözləmək olardı və belə də olub."

Azərbaycan xalqını növbəti parlament seçkilərinin uğurla başa çatması münasibətilə təbrik edən Ə.Əhmədov qeyd etdi ki, mətbuat nümayəndələri seçkilərin bütün mərhələlərinin işıqlandırılmasına böyük töhfələr verib və bu gün də səsvermənin gedişini işıqlandırıblar. Təbii ki, bu zəhmət öz müsbət nəticəsini verib. Azərbaycan növbəti parlament seçkilərini uğurla başa çatdırıb.

Ə.Əhmədov bu fikri xüsusi qeyd etdi ki, indiki məqamda hansısa proqnozu vermək düzgün olmazdı. Çox qısa zamandan sonra MSK ilkin nəticələri qeyd edəcək: "Lakin YAP dəfələrlə seçki ilə əlaqədar mövqeyini açıqlayarkən, qarşıya qoyduğumuz vəzifənin və gözləntinin nədən ibarət olması haqqında məlumat vermişik. 2010-cu ildə keçirilən parlament seçkilərinin nəticələrinə görə, YAP parlamentdə 71 deputatla təmsil olunub. Qarşıya qoydumuz minimum vəzifə 2010-cu ildə əldə etdiyimiz nailiyyəti təkrarlamaqdan ibarət olub. Düşünürəm ki, bu gün qarşıya qoyduğumuz vəzifəyə uyğun olaraq fikir ondan ibarət ola bilər ki, ən azından 5 il bundan əvvəl əldə etdiyimiz nəticəni təkrarlaya biləcəyik. Səsvermənin nəticələri rəsmi elan edildikdən sonra nəzərdə tutduğumuz nəticədən daha çox olarsa, bu, bizim üçün daha böyük uğur olacaq. Hər halda düşünürəm ki, rəqəmlərimiz 70-dən aşağı olmayacaq. İlkin hesablamalarımız, "exit-poll"un nəticələri belə bir fikri söyləmək üçün əsas verir."

YAP sədrinin müavini-icra katibi media nümayəndələrini maraqlandıran sualları cavablandırdı.

**✍ Yeganə Əliyeva,**
**✍ Nilufər Mustafaqızı,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***